# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA KOMİTƏSİ İLƏ QAZAXISTAN RESPUBLİKASI STATİSTİKA AGENTLİYİ ARASINDA STATİSTİKA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Qazaxıstan Respublikası Statistika Agentliyi, statistika sahəsində qarşılıqlı əlaqələrin təkmilləşdirilməsinin, əməkdaşlıqda qarşılıqlı anlaşmanın, statistik informasiyanın genişləndirilməsinin və mübadiləsinin, Tərəflərin statistika orqanlarının işində qarşılıqlı fəaliyyətin gücləndirilməsinin zəruriliyini nəzərə alaraq aşağıdakılar haqqında razılığa gəlmişlər:

## Maddə 1

Tərəflər əməkdaşlığı aşağıdakı formalarda həyata keçirirlər:

- statistik göstəricilər sisteminin işlənməsi və yaradılması, həmçinin statistika müşahidələrinin, uçotların, sorğuların, siyahıya almaların və müayinələrin keçirilməsinin metodoloji materiallarla və proqramlarla təminatı;
- dövlət sirri təşkil edən məlumatların mühafizəsi təmin edilməklə Tərəfləri maraqlandıran mövzular üzrə statistik məlumatların mübadiləsi;
- kompüterlərdən istifadə sahəsində təcrübə mübadiləsi, avtomatlaşdırılmış statistika məlumatları bankının yaradılması və yeni informasiya texnologiyalarının tətbiqinə yardım göstərilməsi;
- Tərəflərin dövlətlərinin və onların ayrı-ayrı regionlarının sosial-iqtisadi vəziyyəti və öz ölkələrində nəşr edilən Tərəfləri maraqlandıran statistik məlumatlar üzrə nəşrlər və çap məmulatının (illik məcmuələrin, külliyatların, bülletenlərin, məlumatların, şərhlərin və s.) mübadiləsi;
- uçot və statistika məsələləri üzrə müştərək texniki layihələrin hazırlanması və müştərək elmi tədqiqatların aparılması;
- ilkin uçotun təkmilləşdirilməsi və milli hesablar sisteminin tətbiqinin təşkili sahəsində təcrübə mübadiləsi;
- gələcəkdə bazar iqtisadiyyatı şəraitində statistik fəaliyyətin hərtərəfli inkişafının təmin edilməsi və təkmilləşdirilməsi məqsədi ilə kadrların öyrədilməsi və ixtisaslarının artırılması;

-beynəlxalq iqtisadi və statistika təşkilatlarında, həmçinin onlar tərəfindən keçirilən tədbirlərdə iştirak məsələləri üzrə qarşılıqlı əməkdaşlıq.

Maddə 2

Tərəflərdən birinin əməkdaşlıq prosesində aldığı informasiya yalnız bu informasiyanı təqdim edən tərəfin yazılı razılığı əsasında üçüncü tərəfə verilə bilər. Əməkdaşlıq prosesində alınan informasiya tərəflərin maraqlarının ziyanına istifadə edilə bilməz.

Maddə 3

Tərəflərin hər biri bu Sazişə görə tərəfdaşının maraqlarının fəal tərəfdaşı kimi çıxış edir və beynəlxalq statistik layihələrin həyata keçirilməsində onun iştiraka cəlb edilməsi üzrə tədbirlər həyata keçirir.

Maddə 4

Bu Sazişin yerinə yetirilməsi ilə əlaqədar mümkün xərclərin ödənilməsi qaydaları haqqında hər bir hal üçün ayrıca olaraq Tərəflər arasında danışıqlar aparılmalıdır. Tərəflər maliyyə yardımı ilə əlaqədar olaraq əməkdaşlıq etdikləri beynəlxalq iqtisadi və statistik təşkilatlara müraciət edə bilərlər.

Maddə 5

Tərəflərin fəaliyyətini daha da hərtərəfli əlaqələndirmək və inkişafını təmin etmək məqsədi ilə, zəruri olduğu təqdirdə, hər iki Tərəfin nümayəndələrindən ibarət statistika xidməti rəhbərlərinin rəhbərliyi altında işçi qrupu yaradılır.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığına əsasən bu Sazişə dəyişikliklər və əlavələr edilə bilər ki, bu da Sazişin ayrılmaz hissəsi hesab edilən ayrı-ayrı protokollarla rəsmiləşdiriləcəkdir.

Bu Saziş Tərəflərin onlar tərəfindən bağlanmış digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə toxunmur.

## Maddə 7

Bu Sazişin tətbiqi və izahına aid bütün mübahisələr və fikir ayrılıqlarını Tərəflər məsləhətləşmələr və danışıqlar yolu ilə həll edəcəklər.

## Maddə 8

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və 3 (üç) il müddətinə qüvvədədir. Əgər növbəti müddətin başa çatmasına ən azı altı ay qalmış qüvvəsinin ləğv edilməsi haqqında Tərəflərin heç biri öz niyyətini yazılı şəkildə digər Tərəfə təqdim etməzsə, bu Sazişin qüvvəsi avtomatik olaraq daha üç il müddətinə uzadılır.

Bakı şəhərində"7"aprel 2000-ci ildə hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Tərəflər arasında bu Sazişin təffsiri, tətbiqi və yerinə yetirilməsində fikir ayrılığı baş verdiyi halda, Tərəflər rus dilində olan mətndən istifadə edəcəklər.

Tərəflər arasında informasiya və sənədlərin mübadiləsi rus dilində həyata keçirilir.

| Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi adından | Qazaxıstan Respublikası Statistika Agentliyi adından |
|---|---|
| [signature] | [signature] |